**Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü Tofiq Həsənov 2009-cu il dekabrın 23- də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaş İbrahimov Tahir Həbib oğlunun və digərlərinin 26 dekabr 2009-cu il tarixli 108 saylı müraciətinin araşdırılmasına dair**

# R Ə Y İ

Bakı şəhəri 9 yanvar 2010-cu il, saat 10.30

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar 82 saylı Ağcabədi seçki dairəsi üzrə Şənlik bələdiyyəsinin üzvlüyünə namizəd İbrahimov Tahir Həbib oğlu və digərləri Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına teleqramla müraciət edərək, adı çəkilən seçki dairəsinin 16 və 17 saylı məntəqə seçki komissiyaları və yerli icra hakimiyyətinin nümayəndələri tərəfindən qanunsuz hərəkətlərin edilməsini bildirmiş və qanunla müəyyən edilmiş qaydada tədbirlər görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 112, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydalara haqqında Təlimat" a uyğun tərtib edildiyindən araşdırmaya qəbul edilmişdir.

Müraciətin tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması məqsədilə, seçki qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada araşdırma müddətinin uzadılması haqqında Mərkəzi Seçki Komissiyası qarşısında qaldırılmış vəsatət əsasında Mərkəzi Seçki Komissiyası araşdırmanın uzadılması haqqında qərar qəbul etmişdir.

Araşdırma nəticəsində 16 saylı MnSK-nın sədri N.Mirzəyevin, 17 saylı MnSK-nın sədri H.Məmmədovun, bələdiyyə üzvülüyünə namizədlər bələdiyyə seçkilərində iştirak etmiş S.Kazımovun, B.Quliyevin, Q.Ağayevin, M.İsmayılovun, T.Qurbanovun, A.Əmirovun müşahidəçilər, M.Süleymanovun, A.Əliyevin, A.Vəliyevin, R.Səfərovun, M.İsmayılovun, A.Səlimovun izahatlarından məlum olur ki, 82 saylı Ağcabədi seçki dairəsi üzrə Şənlik bələdiyyəsinə seçkilər Azərbaycan Respublikasının Seçki Məcəlləsinin tələbinə uyğun keçirilmişdir. Həmçinin müəyyən edilmişdir ki, yerli icra hakimiyyəti işçiləri tərəfindən seçkilərə müdaxilə edilməmişdir.

Beləliklə də, 82 saylı Ağcabədi seçki dairəsinin Şənlik bələdiyyəsini əhatə edən seçki məntəqələrində səsvermə günü qanun pozuntularına yol verilməsi,

həmçinin müvafiq dairə seçki komissiyasının hərəkətsizliyi ilə bağlı irəli sürülmüş iddialar öz təsdiqini tapmamışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və adıçəkilən Təlimatın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m**:

1. Vətəndaş İbrahimov Tahir Həbib oğlunun və digərlərinin 26 dekabr 2009-cu il tarixli 108 saylı müraciəti əsaslı olmadığından təmin edilməsin.
2. Rəy qəbul edildiyi andan 24 saat ərzində dərc edilsin (Mərkəzi Seçki Komissiyasının internet səhifəsində yerləşdirilsin) və surəti şikayətçiyə göndərilsin.

Azərbaycan Respublikası
Mərkəzi Seçk Komissiyası
nəzdində ekspert qrupunun üzvü Tofiq Həsənov